*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 84-89* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.2.84*

# JANR, STRUKTUR, FORMA

## Dramın yaranışı

**Aynurə Mustafayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: aynure.ibadulla@gmail.com

**Annotasiya**. Məqalədə dram janrının tarixi məsələləri araşdırılır. Araşdırma “dram janrı nədən antik yunanda yarandı” sualının həlli üzərində qurulmuşdur. Bu sualı cavablandırmaq üçün dram janrının yarandığı tarixi dövrə – antik Yunan tarixinə müraciət edilir. Dram janrının məhz Antik Yunanda yaranmasının buranın tarixi şərait və şərtləri ilə əlaqəsi araşdırılır. Əsaslandırılır ki, dram digər janrlardan fərqli olaraq hər yerdə və hər zaman mövcud ola bilmir. Onun mövcudluğu müəyyən şərtlər daxilində mümkündür. Çünki poeziya və nəsrdən fərqli olaraq, dram düşüncənin elə bir formasıdır ki, o, yalnız fərdin deyil, həm də toplum təfəkkürünün inkişafı ilə bağlıdır. Araşdırmada əsaslandırılır ki, təfəkkürün bu cür inkişafı antik yunan şəraitində baş verdiyindən, dram bir janr kimi orada yaranmış və inkişaf yolu keçmişdir.
**Açar sözlər:** antik, yunan, dram, Tanrı, Şərq

**Məqalə tarixçəsi:** göndərilib – 17.10.2023; qəbul edilib – 25.10.2023

## The origination of drama

**Aynure Mustafayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: aynure.ibadulla@gmail.com

**Abstract**. In the article is studied the historical issues of the genre of drama. The research is based on solving the question of why the drama genre emerged in ancient Greece. In the interest of answer this question, in the article it is referred to the historical period – ancient Greek history in which the drama genre was originated. The connection between the origin of the drama genre in Ancient Greece and the historical conditions and circumstances of this place is studied. It is justified that the drama cannot exist everywhere and always unlike other genres. Its existence is possible under certain conditions. Because unlike poetry and prose, drama is a way of thinking that is related not only to the development of the individual, but also to thought of society. In the research it is justified since such development of thinking took place in the ancient Greek environment, drama as a genre was originated passed the path of development.
**Keywords:** antique, Greece, drama, God, East

**Article history:** received – 17.10.2023; accepted − 25.10.2023

## Giriş / *Introduction*

Sükunətə qərq olmuş Şərq öz yaradıcılıq potensialını Misir piramidaları, Babil bağları kimi səssiz, sözsüz sənət əsərlərinə xərclədi və bu tikililər Şərq sivilizasiyalarının simvoluna çevrildi. Antik Yunan sivilizasiyasının simvolu isə teatr-dram sənəti oldu. İlk baxışdan Misir piramidaları, Babil bağları daha cazibəli, onu quran insan əqli daha möhtəşəm, mükəmməl görünsə də, əslində dram şüurun daha mürəkkəb, daha inkişaf etmiş formasıdır ki, bu forma-məzmuna çatmaq üçün düşüncənin müstəqil hərəkət xəttinə malik olması lazımdır. Ağayar Şükürov yazır: *"Mifologiyası intellektual və bədii cəhətdən ən zəngin olan inkişaf etmiş yaxın Şərq ölkələri – Misir, yaxud Mesopatomiyada belə o, fəlsəfənin kandarına çatsa da, ancaq mifologiya olaraq qalmışdır. Halbuki orada mifologiya özünün rəngarəngliyi, teoqoniya və kosmoqoniya sahəsində çoxvariantlığı ilə seçilirdi. Buna baxmayaraq, o ölkələrdə mifologiyadan fəlsəfəyə keçid başa çatmadı. Bəs onda yeni fəlsəfi təfəkkür nədən başlamalı idi? Hər şeydən əvvəl, fikrin azad olmasından başlamalı idi"* [7, s.60].

## Əsas hissə / *Main part*

Fikrin azad olması, şüurun mitosdan loqosa keçidi, fəlsəfənin doğuşu Antik Yunanda baş verdi. Bununla da bəşər bu günə qədər az qala, hər sahədə Şərq-Qərb bölgüsü apardığımız iki müxtəlif fikir sivilizasiyalarında öz yoluna davam etdi. Bəşərin yolayrıcı burada gerçəkləşsə də, əslində əsası başlanğıcda – mitosda müəyyənləşmişdi. İ.V.Rak yunan və Misir mifologiyalarının müqayisəsində deyir: *"Ellinin gözəllik, ədalət, ideal dövlət quruluşu haqda təsəvvürləri, əxlaqi-etik dəyərlərin iyerarxiyası və ən əsası, bütün bu kateqoriyaların bədii dərki və ifadəsi ya çox şeydə müasir dövrümüzlə analogiyalara malikdir, ya da nisbətən bizim epoxaya yaxındır. Ona görə də yunan mifinin ideoloji-semantik alt mətni hazırlıqlı oxucu tərəfindən asanlıqla başa düşülür (birinci tanışlıqda). Qədim Misir mifologiyası isə məntiqsizliyinə görə çətin qavranılır" [12, s.8].* Ancaq onların bir kəsişmə nöqtəsi var ki, istər Şərq (Misir), istərsə də Qərb (yunan) mifik düşüncəsində təsəvvür fövqəlgücə – Tanrı obrazına dayanır. Ancaq bu obrazın məzmununda, ona baxış bucağında yenə yolları ayrılır. "*Qədim Yunanıstanda din heç vaxt Qədim Roma, Qədim Misir, Orta əsrlər Avropası və ya erkən islam dövlətləri ilə müqayisə edilə biləcək qədər hakim mövqe tutmamışdır. Yunan şeiri Homerdən əvvəlki dövrdən başlayaraq tanrıları, sanki məqsədyönlü şəkildə, elə təsvir etmişdir ki, dünyada mənəvi nizamın fövqəltəbii təminatçısı ola bilməz* [9, s.182].

Şərq təsəvvüründə Tanrı daha çox ilahi, yunan təsəvvüründə isə insani biçimdədir. Yunan Tanrını Göylərdə deyil, Olimp dağlarında arayır və onun Zevs obrazında tapdığı Tanrısı insan kimi doğulur, sevir, evlənir, arvadına xəyanət edir, Tanrıçalarla mübahisəyə girir. *"Yunan tanrılarının tarixi xaosdan nizama, çirkinlikdən gözəlliyə, tanrılardan insana dönüşdü"* [7, s.106 ].

Yunan Tanrısına heyranlıq duymur, ona dua etməyi özünə borc bildiyi kimi, onu təhqir etməyi də özünə rəva bilir. Homerin "İliada" əsərində Parislə təkbətək döyüşdə qılıncı parçalanan Menelay Göylərə əl qaldırıb deyir: *"Ey Zevs, yoxdur Allahlardan sənin kimi fitnəkarı!*" [*4. s.145*] Homerin digər qəhrəmanlarından biri isə deyir: *"Zevs – olimpiyalı, sən artıq açıq-aşkar bir saxta sevgiliyə dönüşdün"* [4, s.257].

Yunan düşüncəsi Tanrıməkəzli deyil, insanmərkəzli (antroposentrik) idi. Özünü kainatın mərkəzinə qoyan yunan Allah qarşısında itaət deyil, iradə göstərmək əzmində idi. Tanrı onun azadlığını məhdudlaşdırdığı, onu öz hökmlərinə məhkum etdiyi zaman yunanın duaları təhqirə, itaəti mübahisəyə çevrilə bilir. "*Allah ideyasının birbaşa mənimsənilməsi Qərb düşüncəsi üçün*

*səciyyəvi deyil. Ona görə də Qərb ya dindən, ümumiyyətlə, kənarda dayanır, ya da Allah ideyasını sadəcə bir simvol kimi qəbul edərək düşüncənin strukturunda kənarlaşdırır və məhz kənarda özünü tapmış olur. Qərbdə azadlıq nəinki başqa insanların, sosial qurumların, siyasi hakimiyyətin məhdudiyyət sferasından, həm də Allahın hər yerdə və hər şeydə iştirakından irəli gələn daxili nəzakət sferasından kənara çıxmaqla əldə edilmiş olur. Ona görə də "Allah ölmüşdür" ideyasının müəllifləri (Nitsşe, Haydegger və s.) Qərbin az qala azadlıq ideallarının böyük daşıyıcıları, carçıları kimi dəyərləndirilir* [5, s.9].

Hələ Haydegger və Nitsşeyə qədər "Allahı öldürməyə" Antik Yunanıstanda Ksenophanes cəhd etmişdir. O, "Təbiət haqqında" poemasında Homer və Hesiodun əsərlərində formalaşan və yunan toplumunun dini təsəvvürlərində möhkəmlənən Tanrı obrazına istehza edirdi.

Antik Yunanda antik Misirdən fərqli olaraq, sakral bir təbəqə, rahiblər sinfi yox idi. Yunan Tanrılarının yaradıcıları da şairlər idi. Onlar Homerin, Hesoidin əsərlərində yaradılmış, Ksenophanes əsərlərində isə artıq məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdılar.

Şərqdə dini düşüncənin təkamülündə Tanrı tədricən Yerlərdən Göylərə qalxmış, yunan isə öz Tanrısını Olimp dağlarından Yerə, toplum arasına endirmiş, teatr səhnəsinə çıxarmış, burada onunla mübahisəyə girmiş, müzakirə aparmış, öz sualları qarşısında qoymuşdur.

Yunana görə də Tanrı bir gücdür, amma o, güc qarşısında itaət etmək, mütiləşmək kimi mütləq bir borcu olduğunu düşünmür, əksinə, müqavimət göstərmək haqqına və iradəsinə sahib olduğunu fikirləşir. Bu zehniyyəti onda əslində Tanrısını ona tanıdan kitablar yetişdirmişdi. Homerin "İliada" əsərində dənizlərin Tanrısı Poseydon Zevsin xəbərçisinə deyir:

*"Nə olsun ki, güclüdür o? Nəyə gərək lovğalanmaq?*
*... Güclüsə də, qoy rahatca, dinc otursun öz yerində.*
*Qorxaq bilib, qol zoruyla məni nahaq qorxutmasın!"* [4, s.95]

"İliada" əsəri öz oxucusunun altşüuruna həkk edir ki, hətta fanilər də Allaha qarşı üsyan edə bilər. Yelena sevgi və gözəllik Tanrısı Afroditaya deyir:

"Ey amansız ilahə, de, bu hiylədə qəsdin nədir?/ Əl çək allahlıqdan, Bir də ayaq basma pak Olimpin zirvəsinə" [4, s.157].

Yunana görə, Tanrı gücdürsə, insan da iradədir. Onun öz əqlinə, zəkasına olan inamı Tanrıya olan inamından az deyildi. Təbii ki, bu inam yoxdan var ola bilməzdi, Antik yunan cəmiyyəti onu yaradan, möhkəmləndirən zəkalara malik idi. Misir sivilizasiyası gücün təmsilçisi olan firon kəlməsi ilə, yunan isə zəkanın təmsilçisi olan filosof kəlməsi ilə simvolizə olunur. Qədim Misirin adı gəlincə, azdan-çoxdan tarixlə tanışlığı olan hər kəsin bir fironlar siyahısı var ikən, Antik Yunan deyincə Perikldən başqa ağla gələn heç bir siyasi güc yoxdur, onun da adı uzun-uzadı siyahısını qoya biləcəyimiz yunan mütəfəkkirlərinin adı ilə müqayisədə çox kölgədə qalır. Əslində Periklin adı belə Misir fironlarının adına ekvivalent deyil, çünki o, əslində, siyasi güc deyil, siyasi zəka idi və onun hakimiyyəti dövründə yunan demokratiyası özünün ən parlaq dönəmini yaşamışdı.

Demokratiya, fikir azadlığı Afina şəhər dövlətinin siyasi idarəetmə forması deyil, həm də bu toplumun altşüur hadisəsi idi. Allahı belə tənqid edən yunanlı üçün toxunulmazlıq həddində olan heç kim, heç nə yox idi, hər kəs və hər şey onun sualları qarşısında qala, onun şübhələrinə hədəf ola bilərdi.

Yunan Göylərdə müqəddəs, Yerlərdə ideal aramırdı. O, ədalət arayırdı və ən əsası isə bu ədaləti Göylərdən, yaxud da saraylardan ummurdu. Yunan bu ədaləti özü qurub-yaratmaq iddiasında idi, ona görə də bəşəriyyətə ədalətin doğru ünvanını – demokratiyanı göstərə bilmişdi. Qədim Çin (Şərq) sivilizasiyasının azman fikir adamı Konfutsiyə görə isə ədalətin ünvanı ideal hökmdar idi. *"Konfutsi, xüsusilə yönltiçilərin "ideal insan" olmalarını istəməkdədir. Yönəticilər ideal insan olacaq ki, çevrəsindəkilər və xalq da ondan örnək alsın*" [6].

İdeal hökmdar xəyalları Şərq bədii təxəyyülünü fantastik, demokratiya uğrunda mücadilə yunan yaradıcı təxəyülünü dramatik müstəviyə gətirib çıxardı. *“Biz dram sənətinin ideallaşdırmadan uzaq olması fikrini təkrarlamağı xoşlayırıq və müəyyən mənada bu belədir: Dramaturgiya həyatın qaranlıq tərəflərini bəzəmir”* [2, s.18]. Yunan nəinki həyatın qaranlıq tərəflərini bəzəyir, hətta onu bütün çılpaqlığı ilə görüb göstərirdi, özü də yalnız siyasi, elmi, fəlsəfi, ədəbi müstəvilərdə deyil, hətta məişət müstəvisində də. Bu gün elmi məsələlərin müzakirə masasına yatırıldığı simpozium kəlməsi Antik Yunanın ev məclislərində apardığı mübahisə-müzakirələrin adından miras qalmışdır. *“Elmi ünsiyyət və müsahibə forması kimi müasir “simpozium” qədim yunan “simpoziumları”da – Afina nahar və ziyafətlərində süfrəarxası söhbətlərə gedib çıxır. Bu süfrəarxası söhbət mədəniyyəti qədim ənənələrə malikdir. Onları hələ Homer insanlar arasında qarşılıqlı ünsiyyətin əla forması kimi tərif etmişdi”* [10, s.45].

Yunanlı yüksək kürsülərdən ona söylənən monoloqların dinləyicisi yox, dialoqların iştirakçısıydı. Çünki bu cəmiyyət xalqa öz fikirlərini diktə etmək istəyən deyil, onun fikirlərini soruşmaq istəyən Sokrat kimi böyük düşünənlərə malik idi. “*O, (Sokrat – A.İ.) filosoflar, sofistlər, siyasətçilər, hərbi rəhbərlər, şairlər, heykəltəraşlar, rəssamlar, sənətkarlar, tacirlər, alıcılar, azad insanlar və qullar, siyasətin nüfuzlu vətəndaşları və sadə insanlar, kişilər və qadınlar, qocalar və gənclər, qorxaq və təkəbbürlü, ortabab və zəkalı insanlarla, dostlar və düşmənlər, afinalılar və əcnəbilərlə gecə-gündüz, hərbi yürüşlərdə, evdə, azadlıqda və zindanda söhbət edirdi. Və o, nələr haqqında danışırdı: Allahlar, xeyir və şər, xeyir və ədalət, azadlıq və vəzifə, məziyyətlər və şallaqlar, zənginlik və yoxsulluq, dostluq və qarşılıqlı yardım, özünütanıma və təhsil, ruh və bədən, həyat və ölüm haqqında”* [10, s.49]. Bu tip mübahisə-müzakirələr yunan düşüncəsini daim hərəkətdə saxlayır, onu irəliyə doğru aparırdı. Təbii ki, bu cür hərəkətli düşüncənin tempi üçün ilk misrasından sonuncu misrasına qədər eyni fikrin, yaxud baxış bucağının ifadə olunduğu lirika olduqca hərəkətsiz, təhkiyə üzərində qurulan epik janrlar isə çox ləng idi. Süjetin inkişafı boyunca öz qəhrəmanının düşüncəsini irəliyə aparan, dəyişən baxış bucağına keçirən dram isə yunanın heç bir qadağa zonası tanımayan azad düşüncəsini, bütün güclərə, hətta müqəddəslərə belə üsyan edən özgür iradəsini, hər şeyi şübhə altına alan, sorğulayan zəkasının ifadəsi  üçün hərəkətli janr idi. Prometey kimi Allahla (Zevs), Antiqona kimi kralla (Kreon), Medeya kimi əriylə (Yazo) mübahisə etmək gücü və iradəsinə sahib xarakterləri yalnız səhnə qəhrəman edə bildiyi kimi, belə qəhrəmanlar da o zaman ancaq Antik Yunanıstanda (Afinada) yetişə bilərdi. Çünki afinalı  şərqlidən fərqli olaraq, Buddanın “*Dünyəvi acılara və əzablara son qoymaq istək və arzulardan vaz keçməyə bağlıdır. İztiraba son vermək üçün fani işlərdən qurtulmaq lazımdır”* [3, s.9] kimi çağırışları ilə taleyini yaşamağa deyil, Sokratın “*Sorğulanmayan həyat yaşanmağa dəyməz”* fəlsəfəsi ilə onu yaratmağa can atırdı. Bu dünyanı fani hesab edib, ömrünü o dünyanın gözəlliklərini qazanmağa həsr edən şərqlidən fərqli olaraq, yunanlı bu dünyanı gözəlləşdirmək uğrunda mübarizə aparırdı, mübarizənin olduğu yerdə isə qarşıdurma var, konflikt var və bu konflikt güclərin deyil, zəkaların konfliktidirsə, onda o, macəraçı deyil, dramatik xarakterə malik olur.

Hegel yazırdı: “*Yunanlarda fərdiyyət güclüdür, onlarda kollektiv cəmiyyət yoxdur”* [8, s.371]. Yunan toplumu idarə olunan kütlədən deyil, zəka sahibi fərdiyyətlərdən ibarət idi. Kütlə dramatik qəhrəman yetirə, fərdiyyət isə heç bir janrda dram qədər özünü ifadə edə bilmir. Hegel yazırdı: “Buna görə də bu cür fərdiyyətlər sənətin, xüsusən də dramatik sənətin əsas mövzusu ola bilər, çünki onlar öz istəkləri və qərarları ilə hər hansı münasibətdən kənarda, müstəqil şəkildə hərəkət edirlər” [3, s.178].

Poeziya gözəlliyi, epos isə güc və qüvvəti də qəhrəmanlaşdıra bilirsə, dram yalnız fikir və zəka sahiblərini qəhrəman edir. Klassik Şərq poeziyası zəkası haqqında heç bir təsəvvürümüz olmayan Gözəli, epik şeiri isə güc və qüvvət sahibi Rüstəm Zalları qəhrəmanlaşdırırdı. Antik Yunanın qəhrəmanı isə nə bir gözəllik, nə də bir güc sahibi olmayan, öz idealları uğrunda ölüm badəsini məmnuniyyətlə içən zəka – Sokrat idi˙. Bu cəmiyyətdə dini inanclar öz qarşısında fəlsəfəni,

cahillik elmi, siyasilər isə xalqı görürdü. Antik yunanda gücün azad insan zəkası üzərində qələbəsi hesab oluna bilən Sokrata oxunan ölüm hökmü də özündən daha üstün bir güclə "Sokratın müdafiəsi" kimi bütün zamanların ən möhtəşəm məhkəmə çıxışı ilə toqquşmalı oldu. Bu qədər söz, fikir toqquşmalarının doğduğu mübahisələrlə dolu bir cəmiyyət də, təbii ki, dramatik mövzu-qəhrəmanlara gəbə olmalı idi. Ona görə də bütün janrlar Antik Yunanda yaransa da, heç bir janr dram qədər burada yüksəlişə keçə, özünün böyük imzalarını, qəhrəmanlarını yarada bilməmişdi. Dram özü də tarix boyu ən böyük yüksəlişi məhz Antik Yunanda yaşadı. Teatr-dram burda yalnız sənət deyil, həm də ictimai-siyasi bir güc idi, özü də ikinci hakimiyyət hesab olunacaq qədər bir güc. Siyasi hakimiyyət bu gücü özü üçün təhlükə bilmir, əksinə onun daha da güclənməsi üçün işlər görürdü. *"Tanrı Dionisin şərəfinə keçirilən festivallarda tamaşalar şəhər-dövlət tərəfindən maliyyələşən yarışmalar çərçivəsində açıq havada nümayiş etdirilirdi. Minlərlə insan teatra toplaşırdı. Bu tamaşalar dövlət siyasətini tənqid etmək və siyasətçiləri ələ salmaqda misilsiz söz azadlığı sərgiləyirdi"* [1].

## Nəticə / *Conclusion*

Sözün azad, düşüncənin müstəqil olduğu bu cəmiyyət o dərəcədə inkişaf etdi ki, nəticədə Antik Yunan sivilizasiyası özündən min il əvvəl mövcud olan sivilizasiyaların əlindən mərkəzləşmə təclini alıb, onu Şərqdən Qərbə ötürdü və o gündən bu günə Şərq dünyanın əyalətinə, Qərb isə mərkəzinə çevrildi. Bu prosesdə siyasi demokratiyanın sənət ekvivalenti olan dramaturgiyanın rolu o qədər böyük oldu ki, tarix onu gələcəyin yaddaşına Antik Yunan dünyasının atributlarından biri kimi həkk etdi.

## Ədəbiyyat / *References*


1. Antik Yunanistan'ın bitişi hakkında belge. Scnu.edu. 29 Ekim 2012 tarihinde kaynağından arşivlendi. Erişim tarihi: 4 Temmuz 2009
2. Bentli, E. Dramın həyatı. Ruscadan tərc. F.Cəlilova. – Bakı: ADMİU, – 2019.
3. Buddizmde dört temel gerçek, sekiz dilimli yol ve Nirvana / İslam Medeniyyeti Araşdırmaları Dergisi (İMAD), – 2020, 5 (1). – s.3-28.
4. Homer, İliada. Tərc. M. Rzaquluzadə. – Bakı: Azərnəşr, – 1978.
5. İsrael, David. "Konfüçyüs ve ideal toplum". Feniks. Fəlsəfi, kültürel, humanist dergi: https://www.feniksdergi.org/konfucyus-ve-ideal-toplum/
6. Şükürov, A. Kulturologiya. – Bakı: Adiloğlu, – 2003.
7. Xəlilov, S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. – Bakı: Azərbaycan Universiteti, – 2004.
8. Артаманов, С.Д. Сорок веков мировой литературы. в 4-х книгах, книга 1. литература древнего мира.
9. Гегель, Ф. Сочинения. Том 14, книна III. – Москва: – 1958. – 544 s.
10. Зайцев, А.И. Греческая религия и мифология. – Москва, – 2005.
11. Нерсесянц, В.С. Сократ. – Москва: Наука, – 1984.
12. Рак, И.В. Египетиская мифология. – Санкт-Петербург: Журнал.Нева, Летний сад, – 2000.

## Происхождение драмы

**Айнура Мустафаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: aynure.ibadulla@gmail.com

**Резюме.** В статье рассматриваются исторические вопросы драматического жанра. В основе исследования лежит решение вопроса «почему драматический жанр зародился в Древней Греции». В целях ответа на этот вопрос, упоминается исторический период, в который зародился драматический жанр, – древнегреческая история. В исследовании делается вывод о том, что возникновение драматического жанра в Древней Греции связано с историческими условиями и положениями этого места. Утверждается, что в отличие от других жанров драма не может существовать всюду и постоянно. Его существование возможно при определенных условиях. Потому что, в отличие от поэзии и прозы драматургия представляет собой форму мышления, связанную с развитием не только индивидуального, но и общественного мышления. В исследовательской работе обосновано, что, поскольку такого рода развитие мышления происходило в условиях Древней Греции, как жанр драма зародилась и развивалась именно там.
**Ключевые слова:** античность, греческий, драма, Боже, Восток